# İbtidai sinif şagirdlərində ekoloji tərbiyənin formalaşdırılması

**Gülnar Fikrət qızı Allahverdiyeva**
*Cəbrayıl rayon K. Məmmədov adına Böyük Mərcanlı kənd orta məktəbin ibtidai sinif müəllimi*
**E-mail:** gulnar_allahverdiyeva@gmail.com

**Rəyçilər:** p.ü.f.d., dos. G.V. Sultanova,
p.ü.f.d., dos. Y.A. Allahverdiyev

**Açar sözlər:** ibtidai sinif, şəxsiyyət, təbiət, ekoloji tərbiyə, insan, dərs, tədbir, mövzu
**Ключевые слова:** начальный класс, личность, природа, экологическое образование, человек, урок, событие, тема
**Key words:** primary class, personality, nature, environmental education, man, lesson, event, topic

Bütün dünyanı narahat edən, düşündürən qlobal problemlərdən biri ekoloji tarazlığın qorunması məsələsidir. Ekoloji tarazlığın pozulması bir tərəfdən insanın təbiətə təsiri, digər tərəfdən bu təsirlərin gözlənilməz təbii fəlakətlərə gətirib çıxarmasının nəticəsində yaranmışdır. Müasir dövrdə ətraf mühitin, təbiətin qorunması dünya ictimaiyyətinin diqqət mərkəzindədir. Respublikamızda da bu məsələyə xüsusi diqqət yetirilir.

Şagirdlərdə ekoloji tərbiyənin formalaşdırılmasından danışmazdan əvvəl onun, yəni ekoloji tərbiyənin mahiyyətini izah etmək lazım gəlir. Belə ki, hər hansı anlayışı aydın təsəvvür etmədən onun haqqında fikir söyləmək və onu başqalarına aşılamaq çətin olur. Ekologiya yunan sözü olub, yurd, məkan haqqında təlim deməkdir. Ekoloji tərbiyə ahəngdar şəxsiyyət tərbiyəsinin mühüm tərkib hissəsidir. O gənc nəsli ekoloji biliklərlə silahlandırmağa, ekoloji mədəniyyəti formalaşdırmağa yönələn tədbirlər sistemidir. Ekoloji tərbiyənin əsasını təbiətə sevgi, onun mühafizəsi işi təşkil edir. İnsan təbiətin bir hissəsidir. Təbiət insanı öz nemətləri ilə bəsləyir. Lakin bəzən insan öz kortəbii istifadəsi ilə təbiəti, yaşadığı mühiti korlayır. Bu yolla insan öz-özünü məhvə aparır. Bunun qarşısını almaq üçün uşaqları təbiətə qayğılı münasibətdə böyütmək, ekoloji şüur formalaşdırmaq lazımdır.

Məktəblərdə şagirdlərin ekoloji tərbiyəsi üzrə aparılan işin məzmunu olduqca geniş və çoxşaxəlidir: təlim prosesi ilə yanaşı sinifdən xaric işin təşkili, məktəbdənkənar tədbirlərin keçirilməsi zamanı da şagirdlərin mənəvi aləminə təsir göstərilir.

Əlbəttə, bütün fənlər, ayrı-ayrı sahələr üzrə keçirilən tədbirlərin təsir gücü bir-biri ilə eyni olmur. İbtidai siniflərdə ekoloji tərbiyənin inkişaf etdirilməsi üçün "Həyat bilgisi" fənninin tədrisində daha geniş imkanlar vardır. Ekoloji tərbiyə "Həyat bilgisi" fənninin tədrisində ən başlıca vəzifələrdən biridir. Bu tərbiyədə əsas məqsəd şagirdlərə təbiəti mühafizənin, təbii ehtiyatlardan səmərəli istifadənin, nəsli kəsilməkdə olan bitki və heyvanların qorunmasının və artırılmasının vacibliyi haqqında biliklərin verilməsidir. Hər bir şagirdə respublikamızın "Qırmızı kitabı", təbiətdə davranış normaları və qaydaları haqqında məlumat verilməlidir.

İbtidai siniflərdə ekologiya ilə bağlı şagirdlərin əldə edəcəkləri bilik və bacarıqlar "Təbiət və biz" məzmun xəttində, "1.4. Ekoloji bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir" əsas standartı və ona uyğun alt-standartlarda öz əksini tapmışdır. "Təbiət və biz" məzmun xətti üzrə fənnin məqsədi şagirdlərdə:

- təbiətdə obyekt və hadisələr, canlı və cansız aləmin qarşılıqlı əlaqəsi, təbii mühitin insan

fəaliyyəti nəticəsində dəyişməsi haqqında biliklər formalaşdırmaq;

- müşahidələr, ölçmələr və təcrübələr aparmaq, onların nəticələrini təsvir etmək bacarıqları aşılamaq, özünü və təbiəti öyrənməyə həvəs yaratmaq;
- təbiətə sevgi və qayğı hisləri, onunla təmas zamanı ekoloji normalara uyğun davranmaq mədəniyyəti formalaşdırmaqdır.

Şagirdlərdə ekoloji tərbiyənin formalaşdırılması məsələsində biz müəllimlər daha yaxından iştirak etməliyik. Odur ki, mən də tədris prosesində şagirdlərin ekoloji tərbiyəsini daim diqqət mərkəzində saxlayıram, təbii sərvətlərə, ətraf mühitə qayğıkeş münasibət formalaşdırmağa çalışıram. Bu məqsədlə aşağıdakı istiqamətlərdə işlər aparıram:

1. Dərs prosesində müvafiq mövzuların şərhində təbiətin ayrı-ayrı komponentləri, təbiət və cəmiyyət arasında qarşılıqlı təsir və əlaqələrin mahiyyətinin açılmasına geniş yer verirəm, ayrı-ayrı kursların məzmununa uyğun ekoloji biliklər verirəm. Hər bir dərsin ekoloji tərbiyə ilə əlaqələndirilməsi müəllimdən xüsusi yanaşma metodu tələb edir.
2. Sinifdənxaric tədbirlər (ekoloji axşamlar, viktorinalar, ekskursiyalar, yürüşlər və s.) təşkil edirəm. Bu tədbirlər zamanı məktəbimizin yerləşdiyi Abşeron iqtisadi rayonunun "dərdləri" - çirklənmiş havası, neft və mazutla çirklənmiş torpaqları, son zamanlarda daha da aktivləşən sürüşmələr barədə şagirdlərə geniş məlumat verirəm, bu problemləri doğuran səbəbləri şagirdlərə izah edirəm. Bütün bu işlərdə şagirdlərin özlərinin üzərinə düşən məsuliyyəti və borcu onlara başa salıram.
3. Şagirdləri təbiəti mühafizə xarakterli işlərə cəlb edirəm: ağac və kolluqların əkilməsi, yaşıllıqlara qulluq və s.
4. Şagirdlərə ekoloji mövzularda referatlar, məruzələr və layihələr hazırlamağı tapşırıram.

**Məqalənin aktuallığı.** Müasir dünyamızı narahat edən ən başlıca qlobal problemlərdən biri də təbii ki, ekoloji tarazlığın qorunması məsələsidir. Ekoloji tarazlığın pozulması insanın təbiətə təsiri və bu təsirlərin gözlənilməz təbii fəlakətlərə gətirib çıxarmasının nəticəsində yaranmışdır. Hazırkı dövrdə ətraf mühitin, təbiətin qorunması dünya ictimaiyyətinin diqqət mərkəzindədir. Aydın məsələdir ki, respublikamızda da bu məsələyə xüsusi diqqət yetirilir. Bu baxımdan cəmiyyət üzvlərində hələ erkən yaşlardan ekoloji tərbiyənin formalaşdırılması əsas məsələlərdən sayılmalıdır. Xüsusən də təlim-tərbiyə müəssisələrində, şagirdlərdə ekoloji tərbiyənin formalaşdırılması pedaqoji kollektivin qarşısında duran həlli vacib problemlərdən biri hesab olunmalıdır. Məqalə də bu kimi əhəmiyyətli mövzuya həsr olunduğundan onu aktual hesab edə bilərik.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə "ekoloji tərbiyə" anlayışının təsnifatı verilməklə mahiyyəti açıqlanır və onun ahəngdar şəxsiyyət tərbiyəsinin mühüm tərkib hissəsi olduğu xüsusi vurğulanır. Eyni zamanda, ibtidai siniflərdə ekoloji tərbiyənin inkişaf etdirilməsi üçün "Həyat bilgisi" fənninin tədrisinin geniş imkanlara malik olduğu konkret nümunələrlə əsaslandırılır. Həmçinin ibtidai siniflərdə ekologiya ilə bağlı şagirdlərin əldə edəcəkləri bilik və bacarıqların öz əksini tapdığı məzmun xətti, əsas standart və ona uyğun alt-standartlar göstərilir. Məqalə müəllifi fənni tədris edən müəllim kimi dərs prosesində şagirdlərin ekoloji tərbiyəsini daim diqqət mərkəzində saxlamaqla, onlarda təbii sərvətlərə, ətraf mühitə qayğıkeş münasibət formalaşdırmaqla, həmin pedaqoji fəaliyyətin əsas istiqamətlərin şərhini verir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ümumtəhsil məktəblərinin müəllimləri, məktəbəqədər təhsil müəssisələrinin tərbiyəçiləri, eləcə də tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında" Azərbaycan respublikasının Qanunu. Bakı, 2002.

2. Əliyeva R., Mustafayev Q. Ekologiya: Dərs vəsaiti. Bakı, 2004.

3. Mustafayev Q.T., Əlizadə E.Ə. Ekologiya. Bakı: Ozan, 2001.

4. Sadıqov F., Əliyeva E., Abbasov M. Ekoloji tərbiyənin etnopedaqoji əsasları. Bakı: Nurlan, 2007.

5. Əmirova F. Ekoloji Mərkəz: bu gün, sabah // "Ekoloji tərbiyə" metodik-informasiya bülleteni, 2001, № 1.

6. Ekoloji dərnək, klub və digər birləşmələrin nümunəvi tədris proqramları və metodik tövsiyələr. I-IV, V-VII, VIII- XI siniflər üçün tədris-metodik vəsait / Baş red. F.T. Əhmədov, B.H. Təhməzov. Bakı: Nurlar, 2003.

7. Ekoloji dərnək, klub və digər birləşmələrin nümunəvi tədris proqramları və metodik tövsiyələr. V-XI siniflər üçün tədris-metodik vəsait / Baş red. Ə.H. Şükürov. Bakı: Nərgiz, 2007.

**Г.Ф. Аллахвердиева**

## Формирование экологического образования у младших школьников

## Резюме

Одна из главных глобальных проблем нашего современного мира, безусловно, - это защита экологического баланса. Экологические дисбалансы являются результатом антропогенного воздействия на природу и воздействия этих воздействий на непредвиденные стихийные бедствия. В связи с этим ключевым вопросом следует считать формирование экологического образования в обществе с раннего возраста. Формирование экологического просвещения в образовательных учреждениях и у студентов, особенно в образовательных учреждениях, следует рассматривать как одну из важных задач, стоящих перед педагогическим коллективом.

В статье раскрывается сущность понятия «экологическое образование» с помощью классификации и подчеркивается, что оно является важной частью гармоничного воспитания личности. Вместе с тем, на конкретных примерах подтверждается, что преподавание предмета «Знание жизни» имеет широкие возможности для развития экологического образования в начальной школе. Он также показывает линию содержания, основной стандарт и соответствующие подстандарты, которые отражают знания и навыки, которые учащиеся приобретут в области экологии в начальной школе. В процессе обучения основные направления этой педагогической деятельности объясняются тем, что всегда делается акцент на экологическом воспитании учащихся, формируя у них бережное отношение к природным ресурсам и окружающей среде.

**G.F. Allahverdiyeva**

## Formation of ecological education in primary school students

## Summary

One of the main global problems of our modern world, of course, is the protection of ecological balance. Ecological imbalances are the result of human impact on nature and the impact of these impacts on unforeseen natural disasters. In this regard, the formation of environmental education in society from an early age should be considered a key issue. The formation of ecological education in educational institutions and students, especially in educational institutions, should be considered as one of the important problems facing the teaching staff.

The article explains the essence of the concept of "environmental education" by giving a classification and emphasizes that it is an important part of harmonious personality education. At the same time, it is substantiated by concrete examples that the teaching of the subject "Knowledge of Life" has a wide range of opportunities for the development of environmental education in primary school. It also shows the content line, the main standard and the corresponding sub-standards, which reflect the knowledge and skills that students will acquire in the field of ecology in primary school. In the process of teaching, the main directions of this pedagogical activity are explained by always focusing on the ecological education of students, forming in them a caring attitude to natural resources and the environment.

**Redaksiyaya daxil olub:** 08.09.2020